EaP | Eastern Partnership

# Evdə sərf olunan enerjinin azaldılması

Enerjinin səmərəliliyi Aİ üçün prioritet sahələrdən biri olduğu üçün bu qurum Şərq Tərəfdaşlığı regionunda enerjidən istifadəni azaltmağa yönəlmiş bir sıra təşəbbüslərə maliyyə dəstəyi göstərir.

Enerjinin səmərəliliyi evdən başlayır. Enerjinin səmərəliliyini artırmaq məqsədilə görülən tədbirlərin çoxu olduqca ucuz və ya tamamilə pulsuzdur, ancaq enerji haqlarında yüksək miqdarda qənaət etməyə imkan verir.



## Büdcənizə uyğun bir neçə tədbir

**Televizor və digər cihazları elektrik şəbəkəsindən ayırın** – elektriklə işləyən cihazlar ümumi israf etdiyi enerjinin **75%**-ni «gözləmə» rejimində istifadə edir.

Evi işıqlandırmaq üçün sərf olunan enerji haqlarında **40%-ə qədər** qənaət etmək üçün **işıq lampalarını LED lampalarla əvəz edin**. Mümkün qədər **təbii gün işığından istifadə edin**.

Paltarları **aşağı temperaturda** yuyun, çünki paltaryuyanlar ümumi istifadə etdiyi enerjinin **90%**-ni suyu isitmək üçün sərf edir.

Qışda **pəncərə və qapıları möhkəm bağlayın** və **11%** istiliyin itirilməsinin qarşısını almaq üçün **onların ətrafını yapışqan lentlə izolyasiya edin**.

**İsidici cihazların qarşısında yerləşən hər hansı əşyaları** götürün, çünki onlar istini udur.

Yayda kondisionerdən istifadə etmək əvəzinə, evi sərin saxlamaq üçün **pəncərələrdəki pərdələri bağlı saxlayın.**

**Vanna əvəzinə, duş qəbul edin** və **isti suya sərf edilən enerjiyə** **60%** qənaət edin.

*Təqdim edilən rəqəmlər orta hesabla götürülmüşdür və qənaət edilən enerjinin miqdarı fərqli ola bilər.*

EU4Energy

www.EU4Energy.eu